AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

27 may 2016-cı il № 29-32 (9035) Qiymәti 50 qəpik

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi

*Gəmiçiliyin bütün işçilərini*

## 28 MAY – RESPUBLİKA GÜNÜ

*münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinə möhkəm cansağlığı, firavan həyat, xoşbəxtlik, ölkəmizin iqtisadi qüdrətinin artırılması naminə fəaliyyətlərində yeni-yeni uğurlar, gündən-günə çiçəklənən müstəqil Azərbaycanımıza daha böyük tərəqqi arzulayır.*

***Bayramınız mübarək!***

## BU SAYIMIZDA

### TRANSADRİATİK QAZ BORU KƏMƏRİNİN TƏMƏLİ QOYULUB

***Mərasimdə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.***

Mayın 17-də Yunanıstanın Saloniki şəhərində Transadriatik boru kəməri - TAP-ın təməli qoyulub. Bununla bağlı keçirilən mərasimdə layihənin Avropanın enerji təhlükəsizliyindəki mühüm rolu bir daha vurğulanıb.

Səh. 2

### AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ GENERALININ XATİRƏSİNİ YAD EDİB

***Ölkəmizdə səfərdə olarkən Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri, Polşanın sabiq xarici işlər naziri xanım Anna Fotiqa həmyerlisi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordu sıralarında xidmət edən, general-leytenant Məmməd bəy (Matsey) Sulkeviçin xatirəsini ehtiramla yad edib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, A.Fotiqa Azərbaycan Hərbi Dəniz Qüvvələrinin katerində Böyük Zirə adası yaxınlığında hərbi xadimin xatirəsinə ehtiram əlaməti olaraq Xəzər dənizinin suları üzərinə güllər səpələyib.

Səh. 3

### YENİ TİKİLMİŞ “XANKƏNDİ” GƏMİSİ BAKI GƏMİQAYIRMA ZAVODUNDA SUYA ENDİRİLİB

***Mayın 18-də “Xankəndi” yeni sualtı tikinti gəmisi (STG) Bakı Gəmiqayırma Zavodunun yanalma körpüsündə suya endirilib.***

BP-nin Bakı ofisinin mətbuat xidmətindən bildirilib ki, bu gəmi məxsusi olaraq nəhəng “Şahdəniz Mərhələ 2” işlənmə layihəsinin sualtı qurğularını quraşdırmaq üçün layihələndirilib və inşa edilib.

Səh. 4

### BAKI LİMANI NÜFUZLU BEYNƏLXALQ LİMANLAR ASSOSİASİYASININ KONFRANSINA EV SAHİBLİYİ EDƏCƏK

***“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin nümayəndə heyəti 88 ölkədən 300-dən çox liman nümayəndələrini özündə birləşdirən Beynəlxalq Limanlar Assosiasiyasının (International Association of Port and Harbors - IAPH) Panamada keçirilən illik konfransında iştirak edib.***

Səh. 5



## Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında əməkdaşlıq haqqında 2016-cı il martın 17-də Seul şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Koreya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 20 may 2016-cı il.

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

№ 197 QƏRAR Bakı şəhəri, 19 may 2016-cı il

### Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci ilə bağlı bəzi məsələlər barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin tabeliyinə verilsin və Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci adlandırılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2, II kitab, maddə 373; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 mart tarixli 129 nömrəli qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın “Orta ixtisas təhsili müəssisələri” bölməsinin 6-cı hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 67, № 10, maddə 1321; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 fevral tarixli 57 nömrəli qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin strukturu”nun “II. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin törəmə müəssisələri” bölməsinin 1-ci hissəsinə “Akademiyası” sözündən sonra “və onun nəzdində Azərbaycan Dənizçilik Kolleci” sözləri əlavə edilsin.

4. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kollecinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görsün.

5. Bu qərar 2016-cı il 1 sentyabr tarixindən qüvvəyə minir.

***Abid ŞƏRİFOV,***
***Azərbaycan Respublikası Baş nazirinin müavini***

# YAŞA, AZƏRBAYCANIM!

Hamımız - həyata yenicə göz açmış körpədən tutmuş ömrünün ixtiyar çağlarını yaşayan ağsaqqala, ağbirçəyədək zaman - zaman haqsızlığa sinə gərmiş, çapılmış, soyulmuş, talan edilmiş, varlığı, mövcudluğu uğrunda nəsil-nəsil qurban vermiş, haqqa-ədalətə söykənərək belini dikaltmış Azərbaycan adlı bir məmləkətin övladlarıyıq. Əsrlərlə azadlığa təşnə olan, müstəqilliyinə qeyrətli oğul və qızlarının qanı bahasına qovuşan Azərbaycanın! Dünyada tayı-bərabəri olmayan, torpağının altı da, üstü də qızıl olan bir ölkənin! Bir ölkənin ki, azad yaşamağa, öz taleyinin, öz sərvətlərinin sahibi olmağa haqqı ola-ola haqqını həmişə zor-gücü ilə əlindən almağa çalışıblar. Keçən əsrin əvvəllərində əldə etdiyi müstəqilliyin ömrü uzun olmadı. İyirmi üç aydan sonra imperiya bizi yenidən əsarəti altına saldı. Azad yaşamağı hər şeydən üstün tutan xalqımızın sonrakı mübarizəsi də nəticəsiz qalmadı. Əsrin sonuna yaxın yenidən müstəqilliyimizə qovuşduq. Dünyaya meydan oxuyan keçmiş sovet imperiyasının qırmızı ordusu Bakının bütün küçələrini qanla yusa da - beləkdəki körpələrimizə belə rəhm etməsə də, istəyinə nail ola bilmədi. Düz iyirmi altı il əvvəl o qanlı yanvar gecəsində Azərbaycan əsarətə birdəfəlik “Yox!” dedi.

İndi səsimiz BMT-dən gəlir.

Öz əlimiz, öz başımız olsa, Vətən təəssübkeşliyimiz, yurd sevgimiz olsa, ulu Tanrının, bir də təbiətin heç nə əsirgəmədiyi bu məkanı əsl cənnətə çevirərik. Çevirərik, əgər sevgisinə eyni sevgi ilə cavab verə bilsək. Övladlıq borcumuzu, çiynimizə düşən məsuliyyəti dərk etsək, işığından, nurundan hamımıza pay düşən Azərbaycan adlı Günəşi qara buludlardan qoruya bilsək.

Azərbaycan deyəndə özümüz qürur hissi keçirməsək, özümüz ayağa qalxmasaq, varlığımıza, səcdə yerimizə çevrilməsə, digər ölkələrin və xalqların bizə hörmət və rəğbətlə yanaşmalarına nail ola bilərikmi? Əsrlərlə bölünən, talan edilən, sərvətlərinin adı bizim, dadı özgənin olan yurdumuzu “Haralısan?” kəlməsi ilə təzədən özümüz də bölməyək. Qazaxdan Bakıyadək, Naxçıvandan Xaçmazadək, Balakəndən Astarayadək hamımızın olan bu yurdu mənim kəndim, mənim şəhərimə ayırmaqla özümüz də parçalanmırıqmı! Özünə ev tikmək, yuva qurmaq, güzəran yaratmaq istəyirsənsə, buyur. Bu boyda Azərbaycan sənindir. Tik, qur, yarat, abad elə!



Hər şeyin bir başlangıcı var. Bizim üçün hər şey Azərbaycandan başlamalıdır.

Deyirlər Vaşinqtonda heç bir bina Amerika Birləşmiş Ştatları Konqresinin yerləşdiyi Kapitolidən hündür olmamalıdır. Sevgiyə bax, İlahi! Məhəbbət bax, İlahi! Bizdə də belədirmi? Bizim üçün də Azərbaycandan ucalıqda, yüksəklikdə heç nə olmamalıdır. Azmı Vətənin varlığı ilə oynayanlar, dövlətçiliyimizi təhlükə altında qoyanlar, Qarabağ dərdimizlə möhtəkirlik edənlər, satanlar, satılanlar? Faciələrimizdən hakimiyyətə gəlmək üçün azmı istifadə ediblər? Şəxsi ambisiyalar, mənsəbpərəstlik, vəzifə hərisliyi taleyimizə nə qədər facilər yazıb, başımıza nə qədər fəlakətlər gətirib. Milli dövlətçiliyimizin məhv edilməsi, Azərbaycan xalqının yenidən əsarət, köləlik boyunduruğuna salınması üçün bizə qənim kəsilmiş, qanımıza susamış yağıları demirəm, sapı özümüzdən olan baltalar azmı cəhd göstəriblər?

Hakimiyyətə can atan radikal müxalifətin məqsədinə nail olmaq üçün bütün qeyri-siyasi, qeyri-əxlaqi metodlardan istifadə etməsinə nə ad verək? İqtidarın işinə kölgə salmaq üçün az qala qonşu davasını da beynəlxalq təşkilatlara insan hüquqlarının kobudcasına pozulması kimi qələmə verirlər. Yadıma bir vaxtlar Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə məruzəçisi M. Kassanın dilindən çıxan aşağıdakı sözlər düşür: ”Mən Qərbi Avropada elə bir demokratik ölkə tanımıram ki, Azərbaycan müxalifəti qədər qeyri-obyektiv olsun. Ölkə üçün vacib olan məsələlərdə müxalifətin iqtidarla əməkdaşlığı etməməsi çox kədərli və mənfi haldır”. Daha nə deyim?!

Amansız, qəddar, hiyləgər, arxalı düşmənə qalib gəlmək, həddini aşan təcavüzkarı haqla, ədalətlə hesablaşmağa məcbur etmək, respublikamızın ərazi bütövlüyünü təmin etmək, dövlətçiliyimizi qorumaq, müstəqilliyimizi möhkəmləndirmək üçün hər birimiz öz iş yerimizdə əsgərə çevrilməliyik. Son dərəcə qətiyyətli, mətanətli olmalı, əsl vətənpərvərlik nümayiş etdirməliyik. Amalımız bütöv Azərbaycan, qüdrətli Azərbaycan olmalıdır. Tanrının və zamanın bizə verdiyi bu fürsəti müstəqilliyimizin daha da möhkəmləndirilməsi, iqtisadiyyatımızın tərəqqisi, yurdumuzun çiçəklənməsi üçün istifadə etməliyik. İndi Vətən naminə, xalq naminə və deməli, hamımızın naminə daha çox iş görmək vaxtıdır.

Sabah Odlar Yurdunun bayramı – Respublika Günüdür. Yazını ürəyimdən qopan misralarla bitirmək istəyirəm:

***Yaşa, ürəyim, canım,***
***Yaşa, Azərbaycanım!***
***Bir arzun da dəyməsin***
***Daşa, Azərbaycanım!***

***Rasif TAHİROV***

# TRANSADRİATİK QAZ BORU KƏMƏRİNİN TƏMƏLİ QOYULUB

*Mərasimdə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.*



Mayın 17-də Yunanıstanın Saloniki şəhərində Transadriatik boru kəməri - TAP-ın təməli qoyulub. Bununla bağlı keçirilən mərasimdə layihənin Avropanın enerji təhlükəsizliyindəki mühüm rolu bir daha vurğulanıb.

Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə energetika naziri Natiq Əliyev və SOCAR-ın prezidenti Rövnaq Abdullayevdən ibarət nümayəndə heyəti iştirak edib.

Təməlqoyma mərasiminə Yunanıstan, ABŞ, Avropa Komissiyası, Albaniya, İtaliya, Türkiyə, Bolqarıstanın yüksək vəzifəli şəxsləri, o cümlədən konsorsiuma daxil olan şirkətlərin nümayəndələri qatılıblar.



Yunanıstanın Baş naziri Aleksis Tsipras tədbirdə çıxış edərək deyib ki, Transadriatik qaz kəmərinin inşasına başlanması region üçün mühüm əhəmiyyət kəsb edir. O, enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və mənbələrin şaxələndirilməsində bu layihənin böyük rol oynadığını vurğulayıb. Baş nazir deyib ki, bu layihə regionda əməkdaşlıq körpüsünü möhkəmləndirəcək və firavanlığı artıracaq.

TAP layihəsinin icraçı direktoru Yan Bradşou Avropa üçün strateji əhəmiyyət kəsb edən bu layihənin 2020-ci ildən başlayaraq Azərbaycan qazının Avropaya nəqlini həyata keçirəcəyini diqqətə çatdırıb. Direktor bildirib ki, əsas vəzifə Xəzər qazının Avropa bazarına vaxtında çatdırılmasına, tranzit və istehlakçı ölkələrin qarşılıqlı iqtisadi maraqlarının təmin edilməsinə nail olmaqdır. TAP layihəsi Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayacaq.

TAP layihəsinin reallaşması ilə Avropa bazarlarına yeni qazın çıxışına şərait yaranacaq. Bu fikir isə ABŞ dövlət katibi Con Kerrinin TAP-ın təməlqoyma mərasimi iştirakçılarına ünvanladığı məktubda əksini tapıb.

Sonra Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov mərasimdə çıxış edib. TAP üzrə işlərin cədvələ uyğun aparılacağına əminliyini vurğulayan Yaqub Eyyubov bildirib ki, bu layihə Avropa ölkələrinə enerji təhlükəsizliyi məsələsində ciddi dəstək verəcək. Y.Eyyubov deyib ki, "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan TAP kəməri ilə "Şahdəniz-2" layihəsi çərçivəsində hasil edilən Azərbaycan qazının Avropaya nəqli nəzərdə tutulur. TANAP-a qoşulacaq bu boru kəməri ilə ilkin mərhələdə Avropaya ildə 10 milyard kubmetr mavi yanacaq çatdırılacaq.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan "Cənub" qaz dəhlizinin müasir dövrün ən böyük infrastruktur layihəsi olduğunu deyib.

Gürcüstanın Baş naziri Georgi Kvirikaşvili isə Azərbaycanın və Gürcüstanın uğurlu enerji əməkdaşlığından danışıb, ölkələrimizin birgə nəhəng layihələri həyata keçirdiyini qeyd edib.

"Türkiyə TAP və TANAP layihələrinə sonadək dəstək göstərəcək". Bu fikri isə mərasimdə çıxış edən Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak söyləyib.

Mərasim TAP-ın təməlinə qoyulacaq boru kəmərinin imzalanması ilə başa çatıb.

Xatırladaq ki, Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Avropaya nəql edəcək TAP boru kəmərinin uzunluğu təxminən 878 kilometrdir. TAP Türkiyə ilə Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində Trans-Anadolu qaz boru kəmərinə (TANAP) birləşəcək. TANAP şirkəti ilə TAP şirkəti arasında tikinti işlərinə dair saziş imzalanıb. TAP layihəsi Azərbaycan qazının Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. 2020-ci ildə fəaliyyətə başlayacaq TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması planlaşdırılır.

***İqbal Hacıyev***



# Transxəzər marşrutu fəaliyyətini genişləndirir

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə Koordinasiya Komitəsinin mayın 17-də Tbilisidə keçirilən iclasında iştirak edib.***

Gürcüstan Dəmir Yolunun təşkilatçılığı ilə keçirilən tədbirə həmçinin Azərbaycan, Qazaxıstan və Ukrayna dəmiryol qurumlarının, Bakı və Batumi limanlarının, Ukrayna və Rumıniyanın logistika şirkətlərinin rəhbərləri də qoşulublar.

Koordinasiya Komitəsinin sədri, "Qazaxıstan Dəmir Yolu" SC-nin prezidenti Askar Mamin Asiya ilə Avropanı birləşdirən perspektivli nəqliyyat dəhlizi olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) fəaliyyətinin genişləndirilməsi zərurətini xüsusi qeyd edərək, 2015-ci ilin və cari ildə 4 ayın yekunları barədə məlumat verib. A.Mamin müzakirələrdən sonra növbəti müddətə Koordinasiya Komitəsinin sədri seçilib.

İştirakçılar yeni üzvlərin qəbulu ilə bağlı məsələni müzakirə ediblər. "Ukrayna Dəmir Yolu" SC, "Ukrferri" və "Translogistic SRL" (Rumıniya) şirkətlərinin Koordinasiya Komitəsinə üzv qəbul olunması yekdilliklə bəyənilib.

Sonra Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə İşçi qrupun hazırladığı konteyner daşımalarının kompleks tarifləri təsdiq olunub.

İclasda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə daşımaların effektivliyinin artırılması və qarşılıqlı əlaqələndirmə işlərinin operativ təşkili məqsədilə Koordinasiya Komitəsinin Astana şəhərində mərkəzi ofisinin açılması da qərara alınıb.

Sonda Koordinasiya Komitəsinin üzvləri 2016-cı il üçün fəaliyyət planını təsdiq ediblər.



# *Rauf Vəliyev:* "Gəmiçilik ölkəmizin tranzit potensialının gerçəkləşdirilməsində, dənizdə həyata keçirilən nəhəng neft-qaz layihələrinin təminatında çox mühüm rol oynayır"

***Mayın 13-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev Bakıda işgüzar səfərdə olan Rusiya Dəniz Registrinin baş direktoru Konstantin Palnikovla görüşüb. Görüşdə bu nüfuzlu təsnifat cəmiyyətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Şaban Quliyev, Gəmiçiliyin məsul şəxsləri iştirak ediblər.***



Qonaq ötən ilin oktyabrında Rusiya Dəniz Registrinin baş direktoru təyin olunduqdan sonra Bakıya ilk dəfə səfərə gəldiyini qeyd edərək, Azərbaycanın dəniz nəqliyyatı, gəmiqayırma və gəmi təmiri sənayesi ilə yaxından tanışlıq imkanlarından məmnun qaldığını söyləyib. K.Palnikov rəhbərlik etdiyi təşkilatın fəaliyyəti ilə bağlı yeniliklər, aktual tələblər barədə məlumat verib, Gəmiçiliklə əməkdaşlığın çoxillik tarixini yüksək qiymətləndirib. Onun fikrincə, bu qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi hər iki qurumun maraqlarına cavab verir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri R.Vəliyev Azərbaycanda dənizçilik sahəsində aparılan köklü islahatlar, bu sahəyə dövlət dəstəyi, donanmanın yenilənməsi istiqamətində atılan addımlar, gəmilərin texniki vəziyyətinə nəzarət və s. məsələlərdən ətraflı söhbət açıb. Bildirib ki, dəniz nəqliyyatı, başqa nəqliyyat sahələri kimi, daim ölkə rəhbərliyinin diqqətindədir və Azərbaycanın tranzit potensialının gerçəkləşdirilməsində, Avropa ilə Asiya arasında yükdaşımalarda, dənizdə həyata keçirilən nəhəng neft-qaz layihələrinin təminatında çox mühüm rol oynayır. Odur ki, bizim gəmilərin texniki cəhətdən müasir tələblərə cavab verməsi, bu sahədə Rusiya Dəniz Registri ilə səmərəli əməkdaşlıq gündəlikdə duran ən vacib məsələlərdəndir.

Səmimi dialoq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran digər mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

***Vüqar SADIQOV***

# Azərbaycanın dəniz nəqliyyatının bu günü və perspektivləri, gerçəkləşdirilən iri layihələr haqqında ətraflı məlumat verilib

***Mayın 18-19-da Almaniyanın paytaxtında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının "Ticarət və investisiyalar üçün konnektivlik" mövzusunda iqtisadi konfransı keçirilib. Avrasiya məkanında iqtisadi əlaqələrin genişləndirilməsinə həsr olunmuş konfransda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyini sədr müavini Fərhad Quliyev təmsil edib.***

F.Quliyev konfransın "Mərkəzi Asiya və Cənubi Qafqazda transsərhəd nəqliyyat" bölməsində infrastruktur və logistika məsələlərinə dair müzakirələrdə iştirak edərək, Azərbaycanın dəniz nəqliyyatının bu günü və perspektivləri, gerçəkləşdirilən iri layihələr haqqında ətraflı məlumat verib.

Gürcüstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Almaniyanın biznes nümayəndələrinin də qoşulduğu müzakirələrdə ticarət və logistika prosedurlarının sadələşdirilməsi, mövcud maneələrin aradan qaldırılması, iqtisadi idarəetmənin yaxşılaşdırılması, transsərhəd əməkdaşlığın genişləndirilməsi yolları və s. məsələlər diqqət mərkəzində olub. İştirakçılar belə bir qənaətə gəliblər ki, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinin fəaliyyətinin daha da canlandırılması üçün böyük perspektivlər mövcuddur və birgə səylərlə Avropa ilə Asiya arasında ticarət əlaqələrini aktivləşdirmək mümkündür.

Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin nümayəndələri auditoriyanı maraqlandıran suallara da aydınlıq gətiriblər.

## 28 MAY RESPUBLİKA GÜNÜDÜR

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN VARİSİDİR

*Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir.*

*Heydər ƏLİYEV,*
*Ümummilli lider*

*Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra respublika müəyyən səbəblər üzündən süqut etdi. Azərbaycan xalqı və Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə həmişə böyük hörmətlə yanaşmışdır.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

***1917-ci ilin fevralında "xalqlar həbsxanası" çar Rusiyasında baş verən burjua-demokratik inqilabının qələbəsindən sonra Zaqafqaziyada siyasi proseslər özünəməxsus inkişaf yolu ilə cərəyan edir. Əsrlərlə ömür sürmüş mütləqiyyət quruluşu devrilir. Zaqafqaziyadan Dövlət Dumasına seçilmiş deputatlardan ibarət Xüsusi Komitə, noyabrda isə Zaqafqaziya Komissariatı yaradılır. Bolşeviklərin oktyabr çevrilişindən - Böyük Oktyabr Sosialist İnqilabından sonra, 1918-ci fevralın 14-də həmin deputatlar Tiflisdə toplaşırlar və Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaradırlar. Lakin faktiki heç bir iş görə bilmədiyi üçün 1918-ci il may ayının 25-də Zaqafqaziya Seyminin son iclası keçirilir. Gürcüstan Zaqafqaziya Seymindən çıxaraq may ayının 26-da öz dövlət müstəqilliyini elan edir.***

Seymin süqutundan sonra – mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün müsəlman nümayəndələr Tiflisdə toplaşırlar. Mayın 28-də Qafqaz canişininin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycanın Milli İslam Şurası dövlət müstəqilliyinin elan olunması haqqında İstiqlal Bəyannaməsi qəbul edir. Bitərəf Fətəli xan Xoyski başda olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti hökuməti yaradılır.

Beləliklə, 28 may 1918-ci ildə Şərqdə ilk demokratik dövlət – Azərbaycan Xalq Cümhuriyyəti tarix səhnəsinə qədəm qoyur. Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb şəraitdə fəaliyyətə başlayır. Xalq Cümhuriyyəti nə səbəbə məhz Tiflisdə elan edilmişdi? Bakıda Şaumyanın rəhbərliyi ilə erməni millətçiləri 1918-ci ilin martında azərbaycanlılara qarşı əsl soyqırımı həyata keçirmişdilər. Bakıda, Şamaxıda və Qubada 50 min azərbaycanlı – qoca, uşaq, qadın, xəstə süngüdən keçirilərək qətlə yetirilmişdir. Yalnız 1918-ci il iyunun 16-da Azərbaycan Milli İslam Şurası və müvəqqəti hökuməti Tiflisdən Gəncəyə köçür. Qızğın döyüşlər nəticəsində 1918-ci il sentyabrın 15-də Nuru paşanın komandan olduğu Qafqaz İslam ordusu Bakını erməni bolşevik işğalçılardan təmizləyərək azad edir. Sentyabrın 17-də milli hökumət Gəncədən Bakıya köçür və Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olunur.

Çox təəssüf ki, sovet dönəmində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin, həyata keçirdiyi tədbirlərin öyrənilməsinə qadağa qoyulmuş, o dövrün hadisələrinin mahiyyəti qəsdən təhrif olunmuşdu.

1920-ci il aprelin 28-də Sovet Rusiyası Azərbaycanı işğal edəndən sonra – 29 apreldə Azərbaycan SSR İnqilab Komitəsi "İnqilab Komitəsini təşkil etmək haqqında" qərar qəbul etmişdi. Həmin qərarın məzmununun öyrənilməsi göstərir ki, bu sənəd normativ hüquqi aktdan daha çox şüar dolu bəyanatı xatırladır. Qərarın 5-ci abzasında göstərilirdi: "Azərbaycan SSR İnqilab Komitəsi Azəraycan zəhmetkeş kütlələrinin vəkaləti ilə özünə həvalə edilən böyük vəzifələrin biləvasitə icrasına indidən başlayır". Əslində, bu sənəd Azərbaycan SSR İnqilab Komitəsinin özü-özünü yaratması və zəhmətkeşlərin adından fəaliyyətə başlaması barədə həyasız bir bəyanat idi.

Həmin qərarın 1-ci abzasında göstərilirdi: "Ölkəmizin müqəddaratı həll edildiyi qorxunc və əzəmətli saatlarda Sizə, Azərbaycanın bütün zəhmətkeşlərinə müraciət edirik. Azərbaycan inqilabçı proletariatı və qabaqcıl kəndliləri bizə tam etimad etmiş, ölkədə bütün hakimiyyəti bizə tapşırmışlar". Sual olunur: hansı aktla, hansı qərarla, bir sözlə, hansı sənədlə?!

Sovet tarixində 28 may 1918-ci ildə Zaqafqaziya Seyminə Azərbaycandan seçilmiş deputatların daxil olduğu Milli İslam Şurasının Azərbaycanın müstəqilliyini "elan etməsi" kinayə ilə qeyd edildiyi halda, heç kim tərəfindən seçilməmiş Azərbaycan SSR İnqilab Komitəsinin elan edilməsi faktının isə üstündən sükutla keçilmiş və hüquqi əsası olmayan bu orqanın yaradılmasına haqq qazandırılmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə dair arxiv sənədlərinin təhlilindən aydın olur ki, parlamentin açılışı 1918-ci ilin dekabrın 3-nə təyin olunsa da, ilk iclas dekabrın 7-də baş tutur. Həmin gün gündüz böyük xeyriyyəçi H.Z. Tağıyevin Nikolayev küçəsində (indiki İstiqlal küçəsi) yerləşən keçmiş qızlar məktəbinin binasında müsəlman Şərqində ilk parlamentin birinci iclası təntənəli şəraitdə açılır. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, doktor Həsənbəy Ağayev isə sədrin birinci müavini seçilirlər. Ə. Topçubaşov bu vaxt İstanbulda olduğu üçün parlamentə H. Ağayev sədrlik edir. 1919-cu ilin yanvarında Ə. Topçubaşov Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı təyin olunaraq, Parisə gedir. O, hətta 1920-ci ilin yanvarında yenidən parlament sədri seçilirsə də, bu quruma bir gün belə rəhbərlik etməmişdi.





Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti özünün həyatiliyini və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. O, göstərdi ki, Azərbaycan xalqı həqiqətən parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. O vaxt Azərbaycan Cümhuriyyəti bütün müsəlman Şərqində yeganə parlamentli respublika idi.

Özünün 17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 145 iclası keçirilmişdi. Son iclas 1920-ci il aprelin 27-də olmuşdur. Fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdı ki, onlardan da 230-a yaxın təsdiq edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin 28 may 1918-ci il tarixdə qəbul etdiyi ilk normativ hüquqi akt o zamankı Zaqafqaziya Seyminin Azərbaycandan olan deputatları Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Mehdi bəy Hacınski, Xəlil bəy Xasməmmədov və qeyrilərinin, cəmi 25 nəfərin (katib Mustafa Mahmudov) daxil olduğu Azərbaycan Milli İslam Şurası tərəfindən qəbul edilən Azərbaycanın İstiqlal Bəyannaməsi idi.

Bəyannamədə göstərilirdi ki, bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti 9 noyabr 1918-ci il tarixdə milli bayraq haqqında qərar qəbul etmiş, həmin qərarla yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaqlı ulduzdan ibarət milli bayrağın təsviri təsdiq edilmişdi. "Bakı Dövlət Universitetinin nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 29 aprel 1919-cu il tarixli qərarı Azərbaycan tarixinin sonrakı mərhələlərində də Azərbaycanın elminin və tədrisinin inkişafında müstəsna rol oynamışdı. Ümummilli lider Heydər Əliyev bu hadisəni belə qiymətləndirmişdir: "Əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə və maarifinə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar hadisədir".

Azərbaycan Xalq Cümhuriyyəti nisbətən qısa müddət yaşamasına baxmayaraq əhalinin maariflənməsi işinə xüsusi diqqət yetirmişdir.

Dövlət hakimiyyətinin bölgüsü prinsipi baxımından nisbətən yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin Məclisi-Müəssisan ilə bağlı normativ hüquqi akt qəbul etməsinin xüsusi əhəmiyyəti vardı. Təsadüfi deyil ki, parlament 21 iyul 1919-cu il tarixdə "Azərbaycan Respublikası Məclisi-Müəssisana seçki haqqında əsasnamə" qəbul etmişdi.

Ümummilli lider Heydər Əliyevin imzaladığı 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda göstərilirdi: "Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir". Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin təhqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etmişdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdır. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdı. 1919-1920-ci illər mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edilmişdi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi.

Sovet siyasi dövlət və hüquq tarixində, ümumiyyətlə, ictimai elmlərə dair ədəbiyyatda Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin, həmin dövrün hadisə və proseslərinin mahiyyətinin saxtalaşdırılması və mahiyyətinin təhrif edilməsi yeganə hal olmamışdır.

1920-ci il aprelin 27-28-də Sovet Rusiyası beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi. Azərbaycan zorla sovetləşdirildi, xalqın çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoyuldu.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb istimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, nəsillərin yaddaşında tariximizin ən parlaq səhifələrindən biri kimi qaldı. AXC demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər tarixdə silinməz iz buraxdı, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynadı.

***İ. ABBASOV***

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ GENERALININ XATİRƏSİNİ YAD EDİB

***Ölkəmizdə səfərdə olarkən Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri, Polşanın sabiq xarici işlər naziri xanım Anna Fotiqa həmyerlisi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordu sıralarında xidmət edən, general-leytenant Məmməd bəy (Matsey) Sulkeviçin xatirəsini ehtiramla yad edib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, A.Fotiqa Azərbaycan Hərbi Dəniz Qüvvələrinin katerində Böyük Zirə adası yaxınlığında hərbi xadimin xatirəsinə ehtiram əlaməti olaraq Xəzər dənizinin suları üzərinə güllər səpələyib.

Polşa tatarlarından olan Məmməd bəy Sulkeviç 1919-cu ilin martında Azərbaycan Ordusunun baş qərargah rəisi təyin edilib. O, 1920-ci ilin aprel işğalından





sonra bolşeviklər tərəfindən həbs olunub və ölüm cəzasına məhkum edilərək həmin ilin iyulunda güllələnib.

Mərasimdən sonra təəssüratlarını bölüşən Avropa Parlamentinin üzvü bildirib: "Biz ölkələrimizin tarixinə hörmətlə, ənənələrinə, mədəniyyətinə ehtiramla yanaşaraq onları təbliğ etməklə qarşılıqlı surətdə gələcəyimiz üçün zəmin hazırlayır, gənclərimizin tərbiyəsinə, dövlətlərimizin inkişafına, xalqlarımızın tərəqqisinə şərait yaradırıq.

Mənim ulu babamla bir yerdə rus-yapon müharibəsində vuruşan general Sulkeviçin Azərbaycan Xalq Cümhuriyyətinin ordusunda xidmət edərkən qoşun hissələrinin formalaşdırılmasında, ordunun döyüş hazırlığının təkmilləşdirilməsində, uğurlu hərbi əməliyyatların keçirilməsində böyük xidmətləri olub. Məmməd bəy Sulkeviçin xatirəsi Polşada da əziz tutulur. Mənim seçicilərim arasında da çoxlu Polşa tatarları var".

Ölkəmizə səfərləri çərçivəsində bir sıra səmərəli görüşlər keçirdiyini vurğulayan xanım Anna Fotiqa söhbətlər zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına və prinsiplərinə uyğun həlli üçün Avropa qurumlarının səylərinin birləşdirilməsinin və gücləndirilməsinin vacibliyinin vurğulandığını qeyd edərək deyib: "Mənə qoşunların təmas xəttində baş verən son hadisələr, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatlar, Azərbaycanın mülki əhalisinə və obyektlərinə qarşı ağır silahlar vasitəsilə edilmiş hücumlar barədə də ətraflı məlumat verilib. Bu, yolverilməzdir. Polşa hər zaman dost və etibarlı müttəfiq olan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Mən öz tərəfimdən azərbaycanlı qaçqın və məcburi köçkünlərin məsələsini hər zaman parlament və digər səviyyələrdə qaldırıram və bundan sonra da qaldıracağam.

Azərbaycan Avropanın enerji təminatı baxımından vacib olan Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Biz buna böyük önəm veririk. Azərbaycanın hərbi və müdafiə qabiliyyəti çox güclüdür. Biz Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə səylərini də çox yüksək qiymətləndiririk. Sizin ölkənizdən mən həmişə olduğu kimi bu dəfə də çox xoş təəssüratlarla ayrılıram".

## Beynəlxalq Dəniz Təşkilatı dənizdə təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi ilə bağlı tövsiyələr hazırlayıb



***Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının nümayəndə heyəti Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış agentliyi olan, Azərbaycan Respublikasının 1995-ci ildən üzvü olduğu Beynəlxalq Dəniz Təşkilatının (IMO) London şəhərində yerləşən baş qərargahında keçirilmiş Dəniz Təhlükəsizliyi Komitəsinin 96-cı sessiyasında iştirak edib.***

Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, Beynəlxalq Dəniz Təşkilatının baş katibi Kitak Lim qurumun dünyada dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsində mühüm rolunu qeyd edib, dəniz mühitinin mühafizəsi, dənizdə təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi, eləcə də beynəlxalq ictimaiyyəti dərindən narahat edən dəniz quldurluğu hallarının qarşısının alınması məqsədilə müvafiq tövsiyələrin hazırlandığını sessiya iştirakçılarının diqqətinə çatdırıb..

Kitak Lim, həmçinin gələcəkdə dəniz qəzalarının qarşısının alınması məqsədilə üzv dövlətlər tərəfindən baş vermiş dəniz qəzaları barədə məlumatların ətraflı şəkildə Beynəlxalq Dəniz Təşkilatının Qlobal inteqrasiya edilmiş gəmiçiliyə dair məlumat sisteminə daxil edilməsinin vacibliyini xüsusilə qeyd edib.

Sessiya zamanı 2016-cı il üçün "Dənizçilik dünya üçün əvəzedilməzdir" şüarı altında "Dünya Dənizçilik Günü"nə həsr olunacaq tədbirin 29 sentyabrda Beynəlxalq Dəniz Təşkilatının baş qərargahında, paralel tədbirin isə noyabr ayında Türkiyədə keçiriləcəyi barədə məlumat verilib.

Eyni zamanda sessiyada "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya"ya, "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"ya, "Dəniz yolları ilə təhlükəli yüklərin daşınmasına dair Beynəlxalq Məcəllə"yə, "Neft tankerlərinin və qalama yüklər daşıyan gəmilərin yoxlanılması üzrə genişləndirilmiş təftiş proqramı haqqında Beynəlxalq Məcəllə"yə, eləcə də dəniz nəqliyyatı sahəsi ilə bağlı bir sıra digər mühüm sənədlərə təklif edilmiş dəyişikliklər nəzərdən keçirilib.

Bununla yanaşı, yeni gəmilərin inşa edilməsinə dair standartların müəyyən edilməsi, dəniz ətraf mühitinin qorunması, dənizdə təhlükəsizliyin təmin olunması, həyata keçirilən axtarış və xilasetmə əməliyyatlarının təkmilləşdirilməsi, Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlərdə qəbul edilmiş standartların tətbiqinin və nəzarət mexanizminin gücləndirilməsi barədə sessiya iştirakçıları arasında ümumi müzakirələr aparılıb.

Sessiyada, həmçinin Beynəlxalq Təsnifat Cəmiyyəti Assosiasiyasının 12 üzvünün təqdim etdiyi audit hesabatların üzv dövlətlər tərəfindən nəzərə alınması qeyd edilib və Türkiyə Respublikasının "Beynəlxalq dəniz gəmiçiliyinin asanlaşdırılması haqqında Konvensiya"nı ratifikasiya etməsi barədə məlumat verilib.

Sessiya müddətində Dövlət Dəniz Administrasiyasının mütəxəssislərindən ibarət nümayəndə heyətinin Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, sessiyaya qatılmış bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə ikitərəfli görüşləri keçirilib, fikir mübadiləsi aparılıb.

Dünyanın 171 dövlətinin üzv olduğu Beynəlxalq Dəniz Təşkilatının Dəniz Təhlükəsizliyi Komitəsinin 96-cı sessiyası öz işini dəniz təhlükəsizliyi üzrə bir sıra mühüm qərarların qəbul edilməsi ilə yekunlaşdırıb.

## AZƏRBAYCANDA DƏNİZÇİLƏRİN HAZIRLANMASI VƏ SERTİFİKATLANDIRILMASI PROSESİ BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATININ YOXLAMASINDAN UĞURLA KEÇMİŞDİR

***Ölkəmizin Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış agentliyi olan Beynəlxalq Dəniz Təşkilatına üzv olduğu 1995-ci il tarixindən etibarən dəniz nəqliyyatı sahəsində qoşulduğu 20-dən çox beynəlxalq konvensiya və protokollardan irəli gələrək bu sahəyə dair tələblərin təmin olunması qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən həyata keçirilir.***



"Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli 1271 nömrəli Sərəncamında Azərbaycan Respublikasında dəniz gəmiçiliyi sahəsində aparılan siyasətin, habelə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Dəniz Təşkilatı və digər dəniz təşkilatları ilə əməkdaşlığın, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq dəniz konvensiyalarının icrasına nəzarətin həyata keçirilməsi səlahiyyətlərinin Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasına tapşırılması məsələsi öz əksini tapmışdır.

Azərbaycan Respublikasının 22 aprel 1997-ci il tarixli, 276-IQ nömrəli Qanunla qoşulduğu "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın tələblərinin tətbiqi məqsədi ilə Dövlət Dəniz Administrasiyası tərəfindən məqsədyönlü işlər görülmüşdür və bu proses ciddi nəzarətdə saxlanılır.

Dövlət Dəniz Administrasiyası gəmiçilik sahəsində fəaliyyət göstərən müəssisələr, təşkilatlar və Azərbaycanın Dövlət bayrağı altında üzən gəmilər tərəfindən bu Konvensiyanın tələblərinin yerinə yetirilməsinə nəzarət işini həyata keçirərək müvafiq sahədə böyük uğurların qazanılmasını təmin etmişdir.

Belə ki, Dövlət Dəniz Administrasiyası tərəfindən məhz bu məqsədlə dəniz nəqliyyatı sahəsi üzrə tədris proqramları təsdiq edilmiş, Təlim-Tədris Mərkəzlərinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmiş, yeni Təlim-Tədris Mərkəzlərinin yaradılması üçün münbit şərait formalaşdırılmış, eləcə də Konvensiyanın əhatə etdiyi məsələlər üzrə qəbul edilmiş normativ hüquqi aktlar Beynəlxalq Dəniz Təşkilatına təqdim edilmişdir.

Məlumat üçün qeyd edilməlidir ki, "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın qüvvəyə mindiyi hər bir üzv dövlət ən azı beş ildə bir dəfə adıçəkilən Konvensiyanın tələblərinin tətbiqi üzrə müstəqil qiymətləndirmədən keçməlidir.

Bununla əlaqədar olaraq dənizçilərin hazırlanması, onların bilik, bacarıq və səriştəliliyinin qiymətləndirilməsi, eləcə də sertifikatlandırılması sisteminin tətbiqi üzrə Dövlət Dəniz Administrasiyasının fəaliyyəti Beynəlxalq Dəniz Təşkilatının mütəxəssisləri tərəfindən yoxlanılmışdır.

Keçirilmiş yoxlamanın nəticəsi, eləcə də Beynəlxalq Dəniz Təşkilatına təqdim edilmiş sənədlər ətraflı şəkildə təhlil edildikdən sonra ölkəmizdə dənizçilərin hazırlanması sahəsində həyata keçirilən fəaliyyətin qeyd edilən Konvensiyanın tələblərinə uyğun olması barədə Beynəlxalq Dəniz Təşkilatının Dəniz Təhlükəsizliyi Komitəsinin cari ilin 11-20 may tarixlərində London şəhərində keçirilmiş 96-cı sessiyasında adıçəkilən Təşkilat tərəfindən qərar qəbul edilmişdir.

Məhz bu səmərəli və effektiv fəaliyyətin göstəricisi olaraq Azərbaycan Respublikasının Beynəlxalq Dəniz Təşkilatının "Ağ siyahısı"nda olması kimi sevindirici və qürurverici hal Dövlət Dəniz Administrasiyası tərəfindən verilmiş diplom və sertifikatların bütün dəniz dövlətləri tərəfindən tanınması deməkdir.

## YENİ TİKİLMİŞ "XANKƏNDİ" GƏMİSİ BAKI GƏMİQAYIRMA ZAVODUNDA SUYA ENDİRİLİB

***Mayın 18-də "Xankəndi" yeni sualtı tikinti gəmisi (STG) Bakı Gəmiqayırma Zavodunun yanalma körpüsündə suya endirilib.***






BP-nin Bakı ofisinin mətbuat xidmətindən bildirilib ki, bu gəmi məxsusi olaraq nəhəng "Şahdəniz Mərhələ 2" işlənmə layihəsinin sualtı qurğularını quraşdırmaq üçün layihələndirilib və inşa edilib.

Bundan əvvəl gəminin iki iri gövdə seksiyası təhlükəsiz şəkildə Sinqapurdan Bakıya gətirilib və Bakı Gəmiqayırma Zavodunda inşası başa çatmış burun hissəsi ilə uğurla birləşdirilib. Gəminin tikintisi hazırda 80 faiz başa çatıb. Bütövlükdə isə gəminin inşası 2017-ci ilin aprel ayında "Şahdəniz Mərhələ 2" layihəsi üzrə sualtı quraşdırma işlərinin başlanacağı vaxtadək hazır olmaq üçün plan üzrə irəliləyir. O vaxtadək "Xankəndi" qalan tikinti işlərinin başa çatması və istismar sınaqlarının aparılması üçün gəmiqayırma zavodunun yanalma körpüsündə qalacaq.

"Xankəndi" gəmisinin Bakı Gəmiqayırma Zavodunun yanalma körpüsündə suya endirilməsi "Şahdəniz Mərhələ 2" layihəsi tərəfindən atılmış mühüm bir addımdır. Şahdəniz konsorsiumu "Xankəndi" gəmisinin inşasında iştirakından qürur duyur, çünki bu gəmi təkcə Azərbaycanın deyil, bütövlükdə Xəzərin gəmiçilik tarixində yeni bir eranın başlanğıcıdır. Xəzər dənizindəki neft və qaz donanmasının yeni texnologiyalı ən müasir gəmisi olacaq "Xankəndi" suyun dərinliyi 550 metrədək olan hissələrdə Xəzərdə ilk dəfə dünya səviyyəli sualtı qurğular inşa etmək üçün layihələndirilmişdir. Gəminin inşası tamamlandıqdan və istismar sınaqları bitdikdən sonra "Xankəndi" Şahdəniz yatağı sahəsinə aparılacaq və orada Mərhələ 2 işlənməsi layihəsi üçün sualtı quraşdırma işlərinə başlayacaq", - deyə BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell vurğulayıb.

"Xankəndi" gəmisi 2017–2027-ci illər arasında 11 il ərzində "Şahdəniz Mərhələ 2" layihəsinin sualtı quraşdırma işlərində istifadə ediləcək. 378 milyon dollar dəyərində olan "Xankəndi" DNV GL-in (Norveç və Almaniya) təsnifat nəzarəti altında tikilmiş unikal bir gəmidir. Onun uzunluğu 155 metr, eni 32 metr, əsas göyərtəsi isə 13 metrdir. Gəminin 2,5 metr hündürlüyündə böyük dalğalarda (Hs) fəaliyyət göstərə bilmək üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 metrik tonluq əsas kranı, iki ədəd 18 nəfərlik dalğıc kapsulu sistemi, iki ədəd məsafədən idarə olunan aparatı, möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası, 6 ədəd 4,4 meqavat və 2 ədəd 3,2meqavat gücündə generatoru olan iki mühərrik bölməsi olacaq. Onun ümumi çəkisi 17 min 600 tondur və suya oturumu 6,5 metr olmaqla daşıma gücü 5 min metrik ton təşkil edəcək.

## Həmsədr müasir İpək Yolundan yazıb




ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupunun həmsədri Stiv Koen nüfuzlu "USNews" qəzetində dərc etdirdiyi məqalədə bu ölkənin rəsmi dairələrini Qafqaz və Mərkəzi Asiyadan keçməklə, Avropa ilə Asiya arasında müasir "İpək yolu"nu təmin edəcək Trans-Xəzər Şərq-Qərb nəqliyyat və tranzit dəhlizinin inşasına fəal dəstək verməyə çağırıb. Yazıda konqresmen Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyənin regional ticarət və tranzit daşımalarının inkişaf etdirilməsi məqsədilə səylərini birləşdirdiyi və bunun gələcəkdə regionu biznes və yatırımlar üçün cəlbedici məkana çevirəcəyi qeyd olunub.

Stiv Koen, həmçinin ABŞ-Azərbaycan münasibətlərinə toxunaraq, ölkəmizin Birləşmiş Ştatların etibarlı tərəfdaşı olduğunu bildirib. O, iki ölkə arasında mövcud çoxşaxəli əməkdaşlıqdan söhbət açıb.

Bu məqalə Qərb dairələrində müasir "İpək yolu", xüsusilə "Trans-Xəzər Şərq-Qərb nəqliyyat və tranzit dəhlizinə artan marağın növbəti nümayişidir. Xatırlatmaq lazımdır ki, bir neçə həftə əvvəl – aprelin 28-29-da Vaşinqtonda ABŞ-ın tanınmış elm və təhsil müəssisələrindən olan Cons Hopkins Universitetində Azərbaycan tərəfinin təşəbbüsü, Gürcüstan, Qazaxıstan və Türkiyənin ABŞ-dakı səfirlikləri ilə birgə Trans-Xəzər dəhlizinə həsr olunmuş geniş konfrans təşkil edilib.

## Nəqliyyat üzrə işçi qrupun 11-ci iclası keçirilib

***Ukrayna paytaxtında, GUAM-ın Katibliyində nəqliyyat üzrə işçi qrupun 11-ci iclası keçirilib.***



GUAM-ın Kiyevdəki qərargahının mətbuat xidmətindən verilən məlumata görə, iclasda Təşkilatın üzvü olan dövlətlərin və Katibliyin nümayəndə heyətləri iştirak edib.

Tərəflər Azərbaycan, Gürcüstan, Qazaxıstanın nəqliyyat şirkətləri tərəfindən Transxəzər beynəlxalq nəqliyyat marşrutunun və onun əlaqələndirmə komitəsinin yaradılması ilə əlaqədar GUAM-ın nəqliyyat dəhlizinin yeni imkanları barədə informasiya mübadiləsi apardılar. İclas iştirakçıları 2015-ci il noyabrın 19-da Kiyev şəhərində keçirilmiş xüsusi "GUAM-Tranzit-2" konfransının qərarlarının həyata keçirilməsi ilə əlaqədar məsələləri müzakirə etdilər. Tərəflər Beynəlxalq Nəqliyyat Həftəsi çərçivəsində mayın 31-də Odessada keçiriləcək GUAM iştirakçıları olan dövlətlərdə nəqliyyatın inkişafına cavabdeh olan idarə rəhbərlərinin görüşünə hazırlıq məsələlərini də müzakirə etdilər. İclasda GUAM iştirakçıları olan dövlətlərdə nəqliyyatın inkişafına görə cavabdeh olan idarələrin rəhbərlərinin Odessa Bəyannaməsinin və GUAM nəqliyyat dəhlizi ilə yükdaşımaların artırılmasına dair Tədbirlər Planının layihələri razılaşdırılıb və bəyənilib.

# BAKI LİMANI NÜFUZLU BEYNƏLXALQ LİMANLAR ASSOSİASİYASININ KONFRANSINA EV SAHİBLİYİ EDƏCƏK

***"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin nümayəndə heyəti 88 ölkədən 300-dən çox liman nümayəndələrini özündə birləşdirən Beynəlxalq Limanlar Assosiasiyasının (International Association of Port and Harbors - IAPH) Panamada keçirilən illik konfransında iştirak edib.***





Limandan bildirilib ki, konfrans zamanı IAPH-in direktorlar şurası yekdilliklə 2018-ci ildə illik konfransını Bakı şəhərində keçirmək qərarı veribdir. Qeyd edək ki, Bakı Limanı 2010-cu ildən etibarən IAPH-in tam hüquqlu üzvüdür.

IAPH-in baş katibi Susumu Naruse bu münasibətlə deyib ki, "IAPH dünyanın aparıcı limanları üçün əməkdaşlıq etmək və qarşılıqlı təcrübədən öyrənmək üçün gözəl platformadır. 2018-ci ildə keçiriləcək konfransımıza ev sahibliyi etmək üçün Bakı şəhərini seçdiyimiz üçün çox məmnunuq və Azərbaycana səfər edərək yeni Bakı Limanı və ətrafında gedən inkişafı öz gözümüzlə görməyi səbirsizliklə gözləyirik."

IAPH-in prezidenti Santiago Garcia Mila isə öz növbəsində bu konfransın Azərbaycanda və ümumiyyətlə sürətli iqtisadi inkişaf yolu keçən regionda təşkilatın ilk tədbiri olduğunu vurğulayıb: "İnanıram ki, dünyanın hər yerindən gələcək liman nümayəndələri Bakı Limanının Avrasiya məkanında nəqliyyat və logistika mərkəzinə çevrilmək istiqamətində gördüyü işlərlə tanış olmağa şad olacaqlar."

Bakı Limanının baş direktoru Taleh Ziyadov IAHP-in illik konfransının Bakıda keçirilməsi qərarını mühüm hadisə kimi dəyərləndirib: "Bakı Limanının bu tədbirə ev sahibliyi etməsi ölkəmizin tanıdılması baxımından əhəmiyyətlidir. Dünyanın müxtəlif limanlarından 500-dən çox qonağın 2018-ci ildə ölkə paytaxtına səfər etməsi gözlənilir. Qonaqlar yeni Bakı Limanı və Azad Ticarət Zonası (ATZ) ilə əyani tanış olmaqla yanaşı, ölkəmizin tarixi və mədəniyyəti haqqında daha geniş məlumat toplamaq imkanı əldə edəcəklər".

Baş qərargahı Tokio şəhərində yerləşən IAPH 1955-ci ildən fəaliyyət göstərir və hər il keçirdiyi konfranslarda limanların dayanıqlıq və təhlükəsizlik məsələləri, innovativ avadanlıqlarının tətbiqi, ətraf mühitdə baş verən dəyişikliklərin limanlara təsiri, informasiya texnologiyaları və liman əməliyyatları və s. kimi mühüm mövzuları müzakirə olunur. Qeyd edək ki, 2015-ci ildə Hamburq şəhərində keçirilən illik konfransa 2017-ci ildə Bali şəhəri (İndoneziya) ev sahibliyi edəcək.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il 17 mart tarixli Sərəncamı ilə yeni Bakı Limanı (Ələt terminalı) və ətrafında ATZ-in yaradılması ilə bağlı müvafiq tapşırıqlar verilmişdi. Yeni Bakı Limanı ətrafında nəqliyyat və logistika infrastrukturunun qurulması, neft-kimya və əczaçılıq sahələrinin yaradılması, müxtəlif çeşiddə malların istehsalı, qablaşdırılması, markalanması və s. kimi işlərin həyata keçirilməsi planlaşdırılır. 2017-ci ildən ATZ-in tam olaraq fəaliyyətə başlaması nəzərdə tutulub.

### 18 may Beynəlxalq Muzeylər Günü idi

# Muzeylərimiz azərbaycançılıq məfkurəsini uğurla təbliğ edirlər

***Hər il mayın 18-i dünya ölkələrində Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd edilir. Beynəlxalq Muzeylər Şurasının (ICOM) təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir.***

Bu bayram qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da geniş miqyasda qeyd edilir.

Eramızdan əvvəl XVI əsrdə Krit, XIII-XII əsrlərdə Çin, III əsrdə Qədim Roma və Yunanıstanda estetik dəyərə malik əşyaların, əsərlərin, sənədlərin saxlandığı məkanların müasir muzeylərin sələfləri hesab olunduğunu nəzərə alaraq, ölkəmiz ərazisində qurulmuş Atropatena və Albaniya dövlətləri hökmdarlarının saraylarını da belə yerlər kimi qeyd etmək yerinə düşər. Erkən və orta əsrlərdə isə Azərbaycanda hakim sülalələr tərəfindən kolleksiyaçılıq ənənələrinə maraq güclənib, qiymətli əşyalar xəzinələrdə, saray kitabxanalarında mühafizə edilib.

Azərbaycanın ictimai-siyasi, mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan verib. İlk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunub.

Ötən əsrin əvvəllərində isə Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində Pedaqoji, həmçinin Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzeylər yaradılıb. Lakin Nehrəm kəndindəki muzey istisna olmaqla, adları qeyd edilən məkanlar çarizmin mənafeyinə uyğun fəaliyyət göstərib. Təsadüfi deyil ki, Azərbaycanda aşkar edilən qiymətli arxeoloji əşyalar Tiflis, Moskva, Peterburq muzeylərinə göndərilib. Azərbaycanda dövlət səviyyəsində 1919-cu ildə - Xalq Cümhuriyyətinin dövründə təməli qoyulmuş ilk milli muzey 1920-ci ildən Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyət göstərib.

Sovet hakimiyyətinin ilk illərində Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev kimi Bakı milyonçularından müsadirə edilmiş qiymətli sənət əsərləri bu muzeyin eksponatları olub. H.Z.Tağıyevin mülkündə yerləşən Milli Azərbaycan Tarix Muzeyinin binasının özü də tariximizdən xəbər verən daş abidə kimi qiymətlidir. Ona görə də bu yerə bəzən "Muzey içində muzey" də deyirlər.

Ötən əsrin 30-cu illərindən etibarən bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü – dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr muzeyləri yaradılıb.

Təəssüf ki, neçə-neçə tarixi abidə və muzeylərimiz ötən əsrin 90-cı illərində erməni işğalçıları tərəfindən qarət olunub və dağıdılıb. İşğal olunmuş torpaqlarımızda 762 mədəniyyət abidəsi və 1431 mədəniyyət müəssisəsi qalıb. Erməni faşistləri 22 muzeyi, 4 rəsm qalereyasını tamamilə məhv ediblər.

Canlı muzey olan və bu gün düşmən tapdağı altında qalan Şuşada 8 muzey fəaliyyət göstərib. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, görkəmli musiqiçi Qurban Pirimovun Ağdam rayonundakı xatirə, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilib. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi ermənilər tərəfindən tamamilə yerlə-yeksan olunub.

Azərbaycanda milli mənəvi dəyərlərimizə, o cümlədən muzey işinə daim dövlət qayğısı olub. Ölkəmizdə muzey işinin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən və həssaslıqla duyan Ulu Öndər respublikada müvafiq şəbəkənin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxlayıb. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü sayəsində yaradılıb.

Ümummilli Lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində "Şirvanşahlar Sarayı Kompleksi", Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır.

Hazırda ölkəmizdə 200-dən çox muzey fəaliyyət göstərir və onların ekspozisiyaları azərbaycançılıq məfkurəsini uğurla təbliğ edirlər.

## "İqlim dəyişmələrinin Xəzər dənizinə təsiri"



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik H.Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizi problemləri bölməsinin elmi işçiləri Zabit Allahverdiyev, Nazim Əhmədov və Elnur Səfərov İran İslam Respublikasında "İqlim dəyişmələrinin Xəzər dənizinə təsiri" mövzusunda keçirilən beynəlxalq təlimdə iştirak ediblər.***

Beynəlxalq İslam Ölkələri Elm və Okeanoloji Texnologiya Şəbəkəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə E.Səfərov "İqlim dəyişmələrinin Xəzərin səviyyə tərəddüdlərinə təsiri" mövzusunda məruzə ilə çıxış edib. O, Xəzər dənizi səviyyəsinin fəsli tərəddüdlərinin peyk altimetrik müşahidə məlumatlarına əsasən zaman-məkan paylanması və qlobal iqlim indekslərinin dəniz səviyyəsinin dəyişməsinə təsirinin veyvlet modeli vasitəsi ilə tədqiqindən danışıb, dinləyicilərin suallarını cavablandırıb.

Sonda tədbir iştirakçılarına sertifikatlar təqdim edilib.

## Azərbaycan dünyada zəngin fauna və florası olan ölkələrdən biridir



***Mayın 22-si Beynəlxalq Biomüxtəliflik Günü idi. Avropanın bir çox ölkələrində, əsasən də Kanadada qeyd olunan bu əlamətdar gün BMT-nin Baş Assambleyası tərəfindən 2000-ci il dekabrın 20-də elan edilib. Ətraf mühitin çirklənməsi, qlobal iqlim dəyişiklikləri, səhralaşma və əhalinin artımı ilə əlaqədar istehlakın çoxalması, təbii ehtiyatlardan tələsik istifadə biomüxtəlifliyin sürətlə azalmasına səbəb olan amillərdir.***

Azərbaycan Respublikası 2000-ci ildə BMT-nin Baş Assambleyasının biomüxtəliflik üzrə Konvensiyasına qoşulub. Konvensiyaya uyğun olaraq ötən dövr ərzində respublika ərazisində bioloji müxtəlifliyin qorunması ilə bağlı bir sıra tədbirlər həyata keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin son məlumatına görə, hazırda ölkəmizdə ümumi sahəsi 892546,49 hektar olan xüsusi mühafizə olunan təbiət əraziləri, o cümlədən 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Ümumilikdə xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,3 faizini, o cümlədən milli parklar 3,7 faizini təşkil edir.

Azərbaycan dünyada zəngin fauna və florası olan ölkələrdən biridir. Burada faunanın 18 min növü, məməlilərin 97, quşların 357, balıqların 100-ə yaxın, amfibiya və reptiliyaların 67 növ və yarımnövü, həşəratların isə 15 minə yaxın növü qeydə alınıb. Ölkəmiz Yer kürəsində palçıq vulkanlarının unikal və klassik inkişaf regionu kimi tanınıb. Dünyada çinarın 7 növü vardır. Azərbaycanda isə onun yalnız bir növü - Şərq çinarı bitir. Şərq çinarının çoxsahəli əhəmiyyətini, dünyada az yayılmasını, nadir bitki olmasını və son əsrlərdə xeyli azalmasını nəzərə alaraq, onun adı Azərbaycanın "Qırmızı kitabı"na yazılıb.

Azərbaycanda ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması problemlərinin həllinə böyük diqqət yetirilir. Son illər Prezident İlham Əliyevin sərəncamları ilə mühafizə edilən ərazilərin sayının artırılması, onların sahələrinin genişləndirilməsi, eləcə də statusunun qaldırılması, yeni milli parkların, qoruq və yasaqlıqların yaradılması Bioloji Konvensiyanın konseptual müddəalarına əsaslanaraq biomüxtəlifliyin bərpası və qorunmasının strateji və taktiki məsələlərinin həlli istiqamətində Azərbaycanda atılmış çox mühüm addımlardır.

## Dənizlərin səviyyəsinin artması müşahidə olunur




***Dünyanın yüzlərlə ekoloqu Keniyada ətraf mühit üzrə BMT-nin ikinci Assambleyasında iştirak etmək üçün bir araya gəlib.***

Onlar hər il milyonlarla insanın ölümünə səbəb olan ekoloji problemləri, həmçinin bir çox heyvan və bitki növlərinin nəslinin kəsilməsinə gətirib çıxaran qeyri-leqal ticarətin qarşısının alınması yollarını müzakirə edirlər. Assambleya iştirakçıları ərzaq tullantıları, biomüxtəlifliyin qorunub saxlanılması və davamlı istehsalın qənaətlə işlədilməsi barədə, dünya okeanlarının vəziyyətinin yaxşılaşdırılmasına dair bir sıra qətnamələr qəbul etmək niyyətindədirlər.

BMT-nin Ətraf Mühit Proqramının (YUNEP) və Dünya Səhiyyə Təşkilatının birgə hazırladığı hesabat Assambleya iştirakçılarının müzakirəsinə təqdim olunub. Hesabatda bildirilir ki, dünyada bütün ölüm hallarının dörddə biri iqlim dəyişiklikləri, havanın çirklənməsi, ekoloji problemlər və digər kimyəvi maddələrin istifadəsi ilə bağlıdır. Söhbət 12,6 milyon insandan gedir. Bu insanlar müharibələr və münaqişələrlə nisbətdə hər il 234 dəfə daha çox ətraf mühitin deqradasiyası səbəbindən ölür.

YUNEP-in başqa məruzəsində deyilir ki, ətraf mühit yüksək templə tənəzzülə uğrayır. Torpağın səthi qızır, planetin bir çox sakinləri içməli su qıtlığı ilə üzləşirlər. Qar örtüyünün və buzlaqların əriməsi, habelə dənizin səviyyəsinin artması müşahidə olunur.

# DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASINDA GƏMİ HƏRƏKƏTİNİN İDARƏETMƏ XİDMƏTİNİN OPERATORLARI ÜÇÜN TƏLİM KEÇİRİLMİŞDİR




Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətinin məlumatına görə, Dövlət Dəniz Administrasiyasında 16-20 may tarixlərində İspaniyanın dəniz nəqliyyatı sahəsi üzrə mütəxəssislərinin iştirakı ilə təlim keçirilmişdir. Gəmi hərəkətinin idarəetmə xidmətinin operatorları üçün təşkil olunan təlim «Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək» adlı tvininq layihəsi çərçivəsində baş tutmuşdur. İspan mütəxəssisləri İnigo Landeta Bilbao və Antonio Padial Sayas 5 gün ərzində təlimə qatılan iştirakçılara ətraflı biliklər vermişdir. Mövzulara uyğun olaraq ümumi istiqamətlər nəzərdən keçirilmiş, əsas vəzifələr, məqsəd və prioritetlərə dair fikir mübadiləsi aparılmışdır. Təlimlərin ilk günündə dənizçilik sahəsində beynəlxalq qaydaların və konvensiyaların təkamül yoluna nəzər yetirilmişdir.

"Dənizdə yardım göstərilməsinə dair öhdəliklər" mövzusunda fikir mübadiləsi aparılmışdır. Seminarın qızğın müzakirələrə səbəb olan daha bir günü isə bütünlüklə "Axtarış xilasetmə əməliyyatlarının planlaşdırılması" mövzusuna həsr edilmişdir. Bu zaman dənizdə sağ qalma, meteorologiya şərtləri və ətraf mühit, qərarların qəbulu, prioritetlərin müəyyənləşdirilməsi, komandaların verilməsi, təşkilatçılıq, cavabdehlik və s. istiqamətlərin vacib olması barədə danışılmışdır. Axtarış xilasetmə əməliyyatları planlaşdırıldıqdan sonra onun necə həyata keçirilməsi də iştirakçılara izah edilmişdir.

Bundan başqa, "Ekoloji aspektlər" mövzusunda da müzakirələr yer almış, ətraf mühit çirklənməsinin mənbələri – neft sızmaları, təhlükəli maddələrin axıdılmasından yaranan fəsadlar və bununla mübarizə formaları haqqında fikir mübadiləsi aparılmışdır.

Təlimin gündəliyində "Etibarlı mətbu orqanlara məlumatın daşınması və dəqiq məlumatların cəmiyyətə çatdırılması", "Ətraf mühitin çirklənməsi zamanı fövqəladə tədbirlərin görülməsi" və digər mövzular da yer almışdır.

Sonda həftə ərzində əldə olunan biliklər təkrar olaraq bir daha nəzərdən keçirilməklə suallar cavablandırılmış, müzakirələr aparılmışdır. İştirakçılara sertifikatlar verilmişdir.

# YENİ BİLİKLƏRƏ VƏ VƏRDİŞLƏRƏ YİYƏLƏNİBLƏR

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində növbəti beynəlxalq treninqlər keçirilir. Amerika Gəmiçilik Bürosu (ABS) ilə əməkdaşlıq çərçivəsində təşkil olunan treninqlərin başlıca məqsədi işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və fəaliyyətin beynəlxalq tələblərə uyğun qurulmasıdır.***






16-18 may tarixlərində keçirilən birinci təlim "Tankerlərin İdarəedilməsi sistemi üzrə qiymətləndirmə proqramı"nı əhatə edib. Bu proqram ilk dəfə 2004-cü ildə Neft Şirkətlərinin Beynəlxalq Dənizçilik Forumunda gəmi operatorlarına onların təhlükəsizlik idarəetmə sistemlərinin qiymətləndirilməsi və təkmilləşdirilməsi üçün təqdim olunub. 12 əsas elementdən ibarət proqram özündə sənaye keyfiyyət standartlarını birləşdirərək, tanker operatorlarının davamlı inkişaf prinsiplərini əks etdirir.

Donanmanın istismarı, dəniz üzgüçülüyünün təhlükəsizliyi, KSƏTƏMM və insan resurslarının idarə edilməsi sahələrində çalışan mütəxəssislər bu təlimlərdə yeni biliklərə və vərdişlərə yiyələniblər.

"Hadisələrin araşdırılması və köklü səbəblərin müəyyənləşdirilməsi" mövzusunda ikinci təlim isə (19-20 may) qəza hallarının araşdırılması işinə cəlb edilən menecerlər, supervayzerlər və KSƏTƏMM personalı üçün nəzərdə tutulub. Məruzə edilməsi, qeydə alınması və araşdırılması vacib olan qəza hallarının tədqiqatında tələb edilən əsas bilik və bacarıqları aşılamaq bu kursun məqsədlərinə daxildir.

Dinləyicilər təlim zamanı qəzanın əsl səbəbini müəyyənləşdirmək üçün dəlillərin təhlili, qəza barədə məlumat verilməsi, onun araşdırılması və sonrakı prosedurlara və müvafiq təlimatlara riayət olunması prosesini dərindən öyrənərək, öz peşəkar bacarıqlarını inkişaf etdiriblər.

İnteraktiv formada təşkil olunan məşğələləri ABS Akademiyasının nümayəndəsi, kapitan Titos Giannakakis aparıb.

# "CƏNUBİ QAFQAZDA DAHA BİR ERMƏNİ DÖVLƏTİ OLA BİLMƏZ"

***"İsrailin səsi" Dövlət radiostansiyasının ən populyar verilişlərindən biri olan "Beynəlxalq saat" verilişində Ermənistan-Azərbaycan sərhədində, habelə Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində baş verən hadisələr geniş şərh edilib.***



Verilişin aparıcısı Eram Serkyulun suallarını "İsrailin səsi" radiostansiyasının daimi şərhçisi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin başçısı, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut cavablandırıb. Arye Qut qeyd edib ki, bir qrup xarici jurnalistlə bərabər Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş sərhədyanı rayonlarına sonuncu səfəri zamanı Cənubi Qafqaz regionunun dinc-yanaşı yaşamaq şəraitindən hələ çox uzaq olmasını yəqin edib. İsrailli ekspert vurğulayıb: "Burada mürəkkəb və gərgin vəziyyət yaranıb. Bəlkə də ən dəhşətlisi - burada çox güclü hiss olunan qeyri-müəyyənlikdir. Burada real olaraq başa düşürsən ki, atəşkəs və sülh son dərəcə amanatabənd anlayışlardır. Ermənistan silahlı qüvvələrinin hədəfində olan dinc azərbaycanlı əhalinin necə əziyyətlər çəkməsini öz gözümlə görmüşəm. Rəsmi Bakı dəfələrlə bəyan edib və Ermənistana xəbərdarlıq edib ki, Azərbaycan mövcud status-kvo ilə heç vaxt razılaşmayacaq. Ermənistanın hərbi provokasiyaları nəticəsində Azərbaycan ordusu 2016-cı il aprelin əvvəlində təxribatın qarşısını almaq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə endirib və onları geri çəkilməyə məcbur edib. Bu gün Azərbaycan Cənubi Qafqazda ən güclü və qüdrətli ordusu olan ölkədir, bu ordu öz gücünü nümayiş etdirmək üçün həqiqət anını gözləyirdi".

Radio verilişinin aparıcısı Ermənistanın İsraildən Azərbaycana hərbi texnika və texnologiyalar satışının dayandırılması barədə tələblərinə Arye Qutun münasibət bildirməsini xahiş edib. Arye Qut deyib ki, 24 il bundan əvvəl Azərbaycan ərazilərini işğal etmiş ölkənin parlamentariləri tərəfindən Odlar Yurdunu beynəlxalq hüquq normalarını pozmaqda ittiham etməsi tamamilə absurddur. Arye Qut soruşur: "Ermənistanın ucbatından Azərbaycan 24 ildən çoxdur ki, təcavüzdən əziyyət çəkir. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edilib. Ermənistan bu ərazilərdə etnik təmizləmə aparıb və bir milyondan çox insan oradan qovulub. Məgər bunlar insan hüquqlarının pozulması, beynəlxalq hüququn ən adi normalarının pozulması deyilmi?".

Verilişin aparıcısının İsrail-Azərbaycan münasibətlərinin perspektivləri barədə sualının cavabında Arye Qut qeyd edib ki, Avrasiya ərazisində heç bir ölkənin İsraillə Azərbaycan Respublikası qədər sıx və səmimi əlaqələri yoxdur: "İsrail ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. İsrail Azərbaycana həmişə böyük diqqət və səmimiyyətlə yanaşıb. İsrail Azərbaycanın ərazi bütövlüyünə hörmət bəsləməsini dəfələrlə bəyan edib. İsrail dünyada Azərbaycan neftinin əsas alıcılarından biridir. Öz növbəsində, Azərbaycanın da kənd təsərrüfatında, hərbi sənayedə, telekommunikasiya sahəsində İsraildə istehsal edilən müasir yüksək texnologilayara ehtiyacı var. Bu siyahını davam etdirmək olar. Eyni zamanda, bu ölkələrdə təhsil, humanitar və mədəniyyət sahələrinə aid layihələr həyata keçirilir. Rəsmi Yerevan tərəfindən tənqid məsələsinə gəldikdə isə deyə bilərəm ki, Azərbaycan və İsrail öz dostlarını və tərəfdaşlarını özləri seçir, hərbi-texniki sahədə strateji əməkdaşlığın səviyyəsini özləri müəyyən edirlər. Bu məsələyə müdaxilə etməyə heç kəsin haqqı yoxdur".

Aparıcı bu münaqişənin dinc yolla tənzimlənməsinin mümkünlüyü və Azərbaycan tərəfindən güzəştlərin mümkünlüyü barədə sualına Arye Qut belə cavab verib ki, Azərbaycan münaqişənin sülh yolu ilə tənzimlənməsinə tərəfdar olduğunu dəfələrlə bəyan edib. Arye Qut deyib: "Cənubi Qafqazda daha bir erməni dövləti ola bilməz. Ermənilər XX əsrin əvvəlində əzəli Azərbaycan torpaqlarında öz müqəddəratlarını təyin ediblər. Azərbaycanın erməni xalqı ilə bağlı heç bir problemi yoxdur və ola da bilməz, lakin bir böyük problem var – Sarkisyanın terrorçu rejimi ilə bağlı sivilizasiya və mədəni uçurum problemi. Dünya daha susmamalı və Ermənistanın nazı ilə oynamamalıdır. Lakin bütün bunlara baxmayaraq Azərbaycan Dağlıq Qarabağdakı erməni vətəndaşlara ən yüksək muxtariyyət statusu verməyə hazırdır. Bu gün özünün geosiyasi və geoiqtisadi təşəbbüsləri sayəsində Azərbaycan regionun ən güclü dövlətinə və liderinə çevrilib, dünyanın bu strateji regionunda heç bir siyasi, iqtisadi, yaxud nəqliyyat məsələsi Azərbaycanın iştirakı və razılığı olmadan həll edilə bilməz. Cənubi Qafqaz regionunda təcrid olunmuş Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyinə görə Xəzərin qaz və neft ehtiyatları ilə bağlı əsas geosiyasi və geoiqtisadi layihələrdən kənarda qalıb. Danılmaz faktdır ki, Ermənistan Cənubi Qafqazda ən asılı və yoxsul ölkədir".

İsrailli ekspert Arye Qut "İsrailin səsi" radiostansiyasına müsahibəsini bu sözlərlə tamamlayıb: "Müasir Azərbaycan-İsrail münasibətləri ümumi dəyərlərə və ortaq tarixə əsaslanır. İki ölkə arasında mövcud insani əlaqələr və müxtəlif dini-tolerant cəmiyyətlərdə yaşamaq əzmi bu ölkələrin hər ikisini zənginləşdirir. Bundan əlavə, aşkardır ki, Azərbaycanda yəhudilərlə müsəlmanlar həmişə dinc yanaşı yaşayıb, bu gün də qardaş kimi yaşayırlar, bu xalqların ortaq tarixi və ümumi taleyi onları həmişəlik bir-birinə bağlayıb".

# Qeyri-qanuni balıq ovuna dair beynəlxalq saziş iyun ayında qüvvəyə minəcək

***İyunun 5-də qeyri-qanuni balıq ovuna dair ilk beynəlxalq saziş qüvvəyə minəcək.***



BMT-nin Xəbərlər Mərkəzi xəbər verir ki, bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatında (FAO) xatırladılıb. FAO-nun baş direktoru Joze Qratsiano da Silva deyib: "Bu sənəd qeyri-qanuni ovçuluğa qarşı mübarizədə yeni dövrün başlanğıcıdır. Saziş vicdansız balıqçıları bazarlara çıxışdan məhrum edərək balıq sənayesinin möhkəmlənməsinə kömək edəcək, balıq məhsulları tədarükünün bütün mərhələləri üçün müstəsna hüququ təmin edəcək".

Sazişə əsasən nəzarət prosesini sadələşdirmək məqsədilə ölkələr xarici gəmilər üçün müəyyən limanlar ayırmalıdır. Bu gəmilərin komandaları limana yan almaq üçün əvvəlcədən icazə almalı, yerli hökumət orqanlarına balıq ovuna dair sənəd təqdim etməli, habelə bort jurnalının, lisenziyaların, balıqovlama ləvazimatının və yükün yoxlanmasına mane olmamalıdır.

Saziş Avropa İttifaqı, ABŞ və Norveç daxil olmaqla 29 ölkə tərəfindən imzalanıb. Dünyada balıq idxalının 62 faizi, ixracının isə 49 faizi sənədi imzalayan ölkələrin payına düşür.



# Xam neftin yükləndiyi ilk tanker Yaponiya sahillərinə çatıb

***Xam neftin ixracı ilə əlaqədar ABŞ tərəfindən tətbiq olunan qadağadan 40 il sonra bu ölkəyə məxsus xam neftin yükləndiyi ilk tanker Yaponiya sahillərinə yan alıb.***

Yaponiyanın xam neftin topdan ticarəti ilə məşğul olan "Cosmo Oil" şirkəti 2015-ci ildə ABŞ-da neft ixracına qoyulan qadağa ləğv edildikdən sonra ilk dəfə bu ölkədən neft almaq barədə qərar qəbul edib. Neft böhranı ilə bağlı qadağa 1975-ci ildə tətbiq edilmişdi.

Göyərtəsində 300 min barrel neft olan tanker Texas ştatının Hyuston şəhərindən yola düşdükdən 50 gün sonra - mayın 10-da Mie prefekturasında yerləşən neft emalı zavoduna çatıb.

# SUALTI DONANMASINDAN EHTİYATLANMAĞA BAŞLAYIBLAR

*Bu ilin martında ABŞ-ın dəniz məsələləri üzrə eksperti Ronald O'Rurk tərtib etdiyi "Çinin dəniz qüvvələrinin modernləşdirilməsi: Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Qüvvələri üçün nəticələri" adlı hesabatı Konqresə təqdim edib. Hesabatda O'Rurk amerikalı ekspert və natiqlərin çıxışlarına istinadən, Çinin sualtı qayıqlarının sayı barədə fərziyyələr irəli sürüb.*



Ekspert iddia edib ki, hələ 2015-ci ildə Çinin sualtı qayıqlarının ümumi sayı 66-75 arasında göstərilirdisə, 2020-ci ildə onların sayı 69-78, 2026-cı ildə 72-81 və 2030-cu ildə isə böyük ehtimalla 99-a çata bilər. Amerikalı ekspertin ehtimalına görə, Çinlə müqayisədə 2026-cı ilə amerikalıların sualtı qayıqlarının ümumi sayı 61-ə çata bilər və 2030-cu ilə qədər bu gəmilərin yalnız 53-ü istismar müddətini başa vurmamış olacaq. Lakin bütün bunlarla yanaşı, Amerika gəmilərinin sayının az olmasına baxmayaraq, onların əksəriyyəti nüvə arsenalı ilə təchiz ediləcək. Amerika sualtı gəmilərindən fərqli olaraq, Çin sualtı gəmilərinin ən yaxşı halda yalnız yarısı nüvə arsenalı ilə təchiz edilə bilər. Vaşinqton Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi qeyd edir ki, Çinin ballastik raketlərlə təchiz edilmiş "Çzin" layihəli sualtı gəmiləri ABŞ sahillərinə gözlənilməz hücum etmək iqtidarında deyil. Belə ki, bu sualtı qayıqların yerini səsinə görə hidrolokatorlarla müəyyən etmək çox asandır. Məsələ ondadır ki, Çinin yeni layihə əsasında hazırlanan sualtı qayıqları, ötən əsrin 70-ci illərində sovetlər tərəfindən istismardan çıxarılan "Kalmar" sualtı gəmilərindən daha çox səs çıxarır. Çinin sualtı donanmasının ikinci zəif nöqtəsi rabitə ilə bağlıdır. Çinin bu istiqamətdə, daha doğrusu, ultra-aşağı tezliklər ilə ünsiyyət üzərində iş apırması ilə bağlı məlumatlar olsa da, Amerika kəşfiyyatı bu barədə səhih məlumata malik deyil və nəhayət ABŞ-ın Çin sualtı donnamasında zəif hədəf kimi dəyərləndirdiyi məsələlərdən ən önəmlisi sualtı baza ilə bağlıdır. Belə ki, Çinin Haynan adasında yerləşən bazası ABŞ qüvvələri və onların müttəfiqləri üçün o qədər də əlçatmaz hədəf deyil. Lakin bütün bunlara baxmayaraq, amerikalılar özləri də Çinin Sakit okeanda möhkəmlənməyə can atdığını etiraf etmək məcburiyyətindədirlər. Buna əyani sübut kimi, Çinin son illər Vudi adasında "Yer-hava" raketlərini yerləşdirməsini, Cənubi Çin dənizində yeni baza inşa etməsini göstərirlər. Xatırladaq ki, aprelin ortalarında Filippinə səfər edən ABŞ-ın müdafiə naziri Eştən Karter 2020-ci ilə qədər Cənubi Çin dənizinə pilotsuz sualtı qayıq göndərəcəkləri barədə məlumat verib. Çinin sualtı donanması təkcə ABŞ-ı deyil, qonşu ölkələri də narahat edir. "Reuters" xəbər verir ki, Çinin hərbi fəallığından narahat olan Hindistan ABŞ-la qarşılıqlı hərbi yardım barədə danışıqlara başlayıb.

*A. Babayev*



## Ən böyük səyahət gəmisinin təqribən 1 milyard avroya inşa edildiyi bildirilir

***Fransanın qərbindəki Saint-Nazaire tərsanəsində inşa edilən dünyanın ən böyük səyahət gəmisi Sauthemptona, oradan isə Aralıq dənizinə yola düşüb.***

"Mail online"nin məlumatına görə, "Dənizlərin harmoniyası" adlandırılan laynerin uzunluğu 362, eni 66, hündürlüyü isə 73 metrdir. 6300 sərnişin, 2000 heyət üzvü üçün nəzərdə tutulub. Gəmi buz meydançası, kazino, konsert zalı, alpinistlər üçün divar və basketbol meydançasının olduğu 16 göyərtədən ibarətdir.

Fransanın STX şirkəti tərəfindən hazırlanan gəminin təqribən 1 milyard avroya inşa edildiyi bildirilir. Dənizdəki ən sürətli internetə malik laynerdə 7 günlük səyahət azı 1200 dollara başa gələcək.

## Üzən şəhərin tikintisinə hazırlıq görülür

***ABŞ-ın San-Fransisko şəhərində yerləşən Dənizdə Yaşayış Məskənləri İnstitutu ilk üzən şəhərin tikintisinə və hüquqi sənədləşməsinə hazırlıq işləri görür.***

Dəniz sularında yeni növ yaşayış məntəqəsi artıq 2020-ci ildə yarana bilər. Bu şəhərdə yaşayış evlərinin hər kvadratmetri alıcıya 5425 dollara başa gələcək. İnstitutun mütəxəssisləri üzən şəhərin layihəsi üzərində artıq bir neçə ildir işləyir, eyni zamanda internet vasitəsi ilə öz layihələri üçün vəsait toplayırlar.

Layihə müəllifləri üzən şəhərin özünün muxtar siyasi və sosial təhsil, iqtisadiyyat və vergi sisteminin olacağını bildirirlər. İndi onlar bu cür yaşayış məntəqələrinin hüquqi statusunu müəyyən edən müvafiq beynəlxalq razılaşmanın hazırlanması ilə məşğuldurlar. İlk üzən şəhərin həmin razılaşmanı imzalayan dövlətin yaxınlığında yerləşəcəyi istisna edilmir. Hazırda Sakit okeanın bəzi ada dövlətləri ilə belə bir şəhərin tikilməsi üçün ilkin məsləhətləşmələr aparılır.



# SUDA BOĞULDUĞU EHTİMAL OLUNAN VARİSİN BAŞINA NƏ GƏLİB?

***XX əsrin 60-cı illərində Yeni Qvineyada itkin düşmüş Rokfellerlər ailəsinin varisi Maykın Asmat qəbiləsinin üzvləri tərəfindən yeyildiyi ehtimal olunur.***

Vestifinance.ru saytının yazdığına görə, Maykl Rokfellerin itkin düşməsi ilə nəticələnən hadisələr zənciri 1957-ci ildən başlayıb. Həmin il onun atası, Nyu-York ştatının qubernatoru Nelson Oldriç Rokfeller primitiv sənətlər muzeyi açır. Nelson hazırda Rokfeller ailəsinin başçısı olan 99 yaşlı Devid Rokfellerin böyük qardaşıdır.

Muzeyin qəyyumlar şurasının üzvləri arasında 19 yaşlı Maykl da vardı. Harvard Universitetinin tarix üzrə bakalavr dərəcəsini fərqlənmə ilə bitirən və ABŞ ordusunda 6 ay xidmət edən Maykl atası tərəfindən təsis edilmiş muzeyin kolleksiyasına öz töhfəsini vermək qərarına gəlir. Bu məqsədlə 1961-ci ilin martında universitetin nəzdindəki Pibodi arxeologiya və etnoqrafiya muzeyinin təşkil etdiyi ekspedisiyaya qoşulur. Ekspedisiya Niderland Yeni Qvineyasında yaşayan Dani qəbiləsinin həyat tərzini öyrənmək üçün təşkil olunmuşdu.

Bir müddət sonra Maykl bu ekspedisiyadakı fəaliyyətini dayandırır və bütün diqqətini həmin ərazilərdə yaşayan Asmat qəbiləsinin tədqiqinə yönəltməyi qərara alır. 1961-ci ilin oktyabr ayında o, antropoloq Rene Vassinqlə birgə holland patrullarının birindən ələdqayırma katamaran alır və üç həftə ərzində aborigenlərin 13 kəndini dolaşır.

Belə səfərlərin birində, 1961-ci il noyabrın 17-də sahildən 5 kilometr aralıda güclü dalğalar qayığı aşırır və gənc Rokfeller itkin düşür. Onun tapılması üçün göstərilən böyük səylər heç bir nəticə vermir və 1964-cü ildə Maykl rəsmən həlak olmuş sayılır. Ölümə səbəb kimi suda boğulma göstərilsə də, versiyalar içərisində onun sahilə çıxdıqdan sonra Asmat qəbiləsi tərəfindən öldürülərək yeyilməsi də yer alır.

2014-cü ilin martında Amerika yazıçısı Karl Hoffman bu versiyanı öz kitabında detallarına qədər qələmə alır. Hoffmanın sözlərinə görə, o, bu versiyanı təsdiqləyən yüzlərlə müxtəlif sənəd - Niderland hökumətinin yerli missionerlərlə yazışmalarına dair teleqram və məktublar əldə edə bilib. Həmin dövrdə Niderland hakimiyyəti koloniya üzərində nəzarəti saxlamağa çalışdığından varisin ölümünün dəhşətli təfərrüatını gizlətməyə çalışıb.

Qeyd edək ki, Nyu-Yorkdakı primitiv sənətlər muzeyi 1976-cı ildən fəaliyyətini dayandırıb. Maykl Rokfeller və Rene Vassinqin gətirdiyi Asmat qəbiləsinə məxsus sənət nümunələri isə Nelson Rokfeller tərəfindən 1979-cu ildə Nyu-Yorkdakı Metropoliten Muzeyinin kolleksiyasına bağışlanılıb. Hazırda onlar muzeydə Maykl Rokfellerin adı ilə nümayiş edilir.

*Tahir DADAŞOV*

## YARIZARAFAT, YARIGERÇƏK

**Hər şeyin yerindən əvvəl hər kəs öz yerini bilməlidir.**

**Şəxsiyyəti olmayanlara Şəxsiyyət vəsiqəsi vermək cinayət deyil?**

**Kiminsə pişiyinin ağaca dırmaşdırılmasına yəqin ən çox siçanlar sevinir.**

**Yalanın zamanı yoxdur. Yalan bütün zamanlarda işləyib və işləyir.**

**Mən hələ də bəzilərini başa sala bilmirəm ki, igidin yaraşığı ehtiyatdır, ehtiyac yox.**

**Deyirəm bahaçılığın xeyri də var. Yəqin bundan sonra məni də ucuz satmayacaqlar.**

**Bu, bizə çoxmu lazımdır? Adamın qanını qaraltmağın min yolunu bilirik.**

**Sizə elə gəlir ki, hər "Baş üstə!" deyənin başı var?**

**Həqiqət adama həyatı anlamağı, yalan isə həqiqətdən qaçmağı öyrədir.**

**Xırda işləri görə bilməyəcəyinə əmin olanlar adətən böyük işlərdən yapışırlar.**

**Yalanın dalınca sürünmək istəmirsənsə, həqiqətin arxasınca qaç.**

**Balalarınıza özünüzdən sonra təmiz ad qoyun. Qalan şeyləri onlar özləri də qazana bilərlər.**

**Bildiyini babasına verməyən də böyüklərə ehtiramdan danışır.**

**Olsa, bəxt hər şeydən yaxşıdır.**

**Mərifətli adamın savadı olmasa da olar. Savadlı adamın mütləq mərifəti olmalıdır.**

**Allah adama gün verir. İşığı "Bakıelektrikşəbəkə" verir.**

**Haqqın öz yerini tutması üçün haqdan yaxşı tutmaq lazımdır.**

**Hərə bildiyi qədər danışsa, elə sakitlik olar ki...**

**Yaxşı ki, 200 il yaşamırıq. 200 ilə gör nə qədər pislik etmək olar?!**

**Yalan həmişə hər yerə həqiqətdən tez çatır.**

**Hər kəs düz yolda olduğunu düşünür. Neçə düz yol var ki?**

**Yıxmaq sənət deyil. Lap dağ boyda evi yıxsan da.**

**Gedəsi yer olmayanda... güzəştə gedirlər.**

**Bu dünyada adama ən çox vəd verirlər. Hətta Allah da, əməllərimizə görə bizə cənnət və ya cəhənnəm vəd edir.**

**Bir atımlıq barıt uzağı haraya çatır?**

**Bəziləri burunlarını, burundan uzağı görə bilmədiklərinə görə kəsdirirlər?**

**Yalanda zərrəcə oksigen yoxdursa, bəziləri yalanla necə nəfəs alır?**

**Nə boydadır ki, başı heç nədən çıxmır?**

**Yüz yerə işləyənlər işgüzar adamlardır?**

**Adam var, ağzını açan kimi, görünür ki, çörəyi diz üstədir.**

**Çox bilənlər qulaq asdığımız qədər, az bilənlər zəhlə tökənə kimi danışırlar.**

**Yaxşı adam olmağın nəyi pisdir ki, çoxu yaxşı adam olmaq istəmir?**

**Ən çox gözlərim ağrıyır. Özünü gözə soxan nə qədər olar?**

**Yaşamaq üçün günü günə neçəyə satmaq lazımdır?**

**Bəzi adamlara üz əvəzinə dərhal astar göstərmək lazımdır.**

**Yemək acandan-acana, ümid həmişə yaxşıdır.**

**Adam var, üç gündən bir "donos" yazmasa, özünü birtəhər hiss edir.**

**İt nə qədər çox olsa, it hürən tərəfə gedən də bir o qədər çox olar.**

**Lap min kişidən biri ol, amma kişi ol!**

**Arxada danışanların çoxu üzə gülənlərdir. İnanmırsınızsa, dönüb baxın...**

**Minnət ən yüksək faizdən də pisdir.**

**Lap neft çıxsa da, başqasının ayağının altını qazmaq kişilikdən deyil.**

**Bir dildə anlamaq üç-dörd dildə danışmaqdan yaxşıdır.**

**Üzə bilməyənə bir maşın saman da kömək eləməz.**

**Düşmənə çevrilən keçmiş dost digər düşmənlərdən daha təhlükəlidir.**

**Pişiklərini ağaca dırmaşdıracaqlarından qorxduqları üçün çox adam ağaclara qənim kəsilib?**

**Yaxşı ki, kök deyiləm. Bəziləri adamın ətini yeməyə hazırdır.**

**Olsa, pul çox yaxşı şeydir, olmasa, əlbəttə ki, əl çirkidir.**

***Rasif TAHİROV***

# BAKININ EV SAHİBLİYİ ETDİYİ "UEFA U-17" AVROPA ÇEMPİONATINDA PORTUQALİYA MİLLİSİ BİRİNCİLİK QAZANIB







***Mayın 21-də Bakıda keçirilən 17 yaşadək futbolçular arasında Avropa çempionatının qalibi müəyyənləşib.***

Qitə birinciliyinin finalında qarşılaşan Portuqaliya və İspaniya millilləri arasında dueldə Portuqaliya daha güclü olub.

Azarkeşlər oyundan əvvəl möhtəşəm bağlanış şousunun şahidi olublar.

"8-ci Kilometr" qəsəbə stadionunda oynanılan final görüşünü çexiyalı hakim Petr Ardeleanu idarə edib.

Portuqaliya millisinin start heyətində Dioqo Koşta, Dioqo Dalo, Dioqo Keyroş, Ruben Vinaqre, Gedson Fernandeş, Joau Filipe, Jose Qomes, Kina, Mezake Dju, Dioqu Leyte və Florentino meydana çıxıblar.

İspaniya yığmasının heyətində isə meydana Penya, Robles, Qarsiya, Brandariz, Sabarte, Buskets, Emboula, Morlanes, Ruis, Dias, Subias çıxıblar.

İlk hissədə hücumda daha inamlı oynayan portuqaliyalılar 27-ci dəqiqədə hesabı açıblar. Dioqo Dalot topu qapının uzaq küncünə göndərib. İspaniya yığması beş dəqiqə sonra hesabı bərabərləşdirib. Oyunun 32-ci dəqiqəsində Dias başı ilə bərabərlik qolunu vurub. İkinci hissə də qarşılıqlı hücumlar şəraitində keçib. Komandaların fərqlənməyə bir neçə imkanı olsa da, görüşün əsas vaxtı heç-heçə başa çatıb. Qalibi müəyyənləşdirmək üçün on bir metrlik zərbələr vurulub. Penalti zərbələrini dəqiq yerinə yetirən Portuqaliya millisi tarixində ikinci dəfə Avropa çempionu adını qazanıb.

Mükafatları qaliblərə UEFA rəsmiləri ilə yanaşı AFFA prezidenti Rövnəq Abdullayev, Gənclər və İdman naziri Azad Rəhimov və digər rəsmi şəxslər təqdim ediblər.

Xatırladaq ki, Portuqaliya millisi finaladək qapısından bir top belə buraxmayıb. Bu yığmanın qapıçısı Dioqu Koşta 624 dəqiqə "çərçivəni" toxunulmaz saxlayıb. Hücumçu Joze Qomes isə yeddi topla turnirin ən yaxşı bombardiri olub.

Helio Souzanın baş məşqçisi olduğu Portuqaliya komandası "A" qrupunun açılış oyununda Azərbaycan yığmasına 5:0, Şotlandiyaya 2:0 hesabı ilə qalib gələrək, ardından Belçika ilə heç-heçə edib - 0:0. Portuqaliya millisi finaladək qapısından bir top belə buraxmayıb.

Turnirdə "D" qrupunda mübarizə aparan İspaniya isə Hollandiyanı 2:0, İtaliyanı 4:2 hesabı ilə məğlub edərək, Serbiya ilə bərabərliyə qalıb - 1:1. Nəticədə, komanda 7 xalla qrup lideri kimi mərhələ adlayıb.

Dörddəbir finalda Portuqaliya Avstriyaya 5:0, İspaniya İngiltərəyə 1:0 hesabı ilə qalib gəlib. Yarımfinalda Portuqaliya Hollandiyanı 2:0, İspaniya isə Almaniyanı 2:1 hesabı ilə məğlub edib.

Nəticədə, Portuqaliya və İspaniyanın U-17 milliləri bu gün tarixlərində ikinci dəfə finalda üz-üzə gəliblər. 2003-cü ildə keçirilmiş həlledici qarşılaşmada Portuqaliya qələbə qazanmışdı - 2:1. Lakin həmin çempionat qalib komandanın vətənində təşkil olunmuşdu.

Portuqaliya Avropa çempionatının final mərhələsində 2002-ci ildən çıxış edir və bu müddətdə qızılla yanaşı, bürünc medalı (2004-cü il) da hesabına yazıb. Altıncı dəfə final oynayan İspaniya isə ikiqat Avropa çempionu (2007, 2008-ci il) və bir dəfə bürünc mükafatçı (2006-cı il) olub.




## "Formula-1" Avropa Qran-prisini 190 ölkədə 500 milyondan artıq tamaşaçı izləyəcək

***Gələn ay Bakıda keçiriləcək "Formula-1" üzrə Avropa Qran-prisinə hazırlıq işləri plana uyğun olaraq davam edir. Trekin asfaltlanması prosesi artıq başa çatıb. Görülən işlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilib. Pit binasının tikintisi isə artıq yekunlaşıb. Hazırda orada texniki avadanlığın quraşdırılması prosesi gedir.***

Baku city circuit

Bu sözləri gənclər və idman naziri Azad Rəhimov deyib.

Bildirib ki, azarkeşlər üçün 18 min oturacaq quraşdırılıb. Bundan əlavə, azarkeşlərə ayaqüstü biletlər də təklif olunur ki, onlar yarışı izləməklə yanaşı, konsert və əyləncə proqramlarında iştirak edə biləcəklər. Yarış sürətli şəhər treki adına malikdir. Belə ki, Qran-pri zamanı bolidlər saatda 340 kilometr sürətlə hərəkət edəcəklər. Bakı Şəhər Halqası paytaxtın gözəlliyini dünyaya çatdırmağa imkan verəcək. Yarış zamanı televiziya tamaşaçıları Bakının tarixi və müasir görkəminə şahid olacaqlar. Bilet satışı isə istədiyimiz kimi davam edir.

Dünya pilotlarının Bakı Şəhər Halqası haqqında yüksək fikirdə olduğunu bildirən nazir deyib: "Beynəlxalq Avtomobil Federasiyasının rəsmisi Çarli Vaytinq bir müddət əvvəl ölkəmizdə səfərdə oldu və görülən işləri yüksək qiymətləndirdi. O, pilotlar və azarkeşlər üçün heç bir təhlükənin olmadığını diqqətə çatdırdı. Əcnəbi vətəndaşlar üçün viza rejimi də sadələşdirilib. Belə ki, yarışa qeydiyyatdan keçmiş insanlarda akkreditasiya, turistlərdə isə alınan bilet viza rolunu oynayacaq. Yarışa 4 min könüllü cəlb olunub. Qran-priyə kifayət qədər böyük maraq var. Bu yarışı 190 ölkədə 500 milyondan artıq tamaşaçı izləyəcək".




## Bakı Şahmat Olimpiadasının baş hakimi Faiq Həsənov olacaq

***Bakıda keçiriləcək 42-ci Şahmat Olimpiadasının baş hakimi müəyyənləşib.***



Bakı Şahmat Olimpiadası Əməliyyat Komitəsinin mətbuat xidmətinin verdiyi məlumata görə, Ümumdünya Şahmat Olimpiadasının baş hakimi Faiq Həsənov olacaq. Ümumilikdə Olimpiada vaxtı 200-ə yaxın hakim partiyalara nəzarət edəcək. Baş hakimin köməkçiləri Anastasiya Sorokina və Mahdi Abdulrahim olacaq.

Beynəlxalq Şahmat Federasiyasının (FİDE) Hakimlər Komissiyasının sədri Takis Nikolopoulos isə turnirin direktoru təyin olunub.

Xatırladaq ki, Bakıda təşkil olunacaq Şahmat Olimpiadası sentyabrın 1-də start götürəcək və ayın 14-də başa çatacaq. Ölkəmizdə ilk dəfə baş tutacaq mötəbər yarış "Crystal Hall"da keçiriləcək. Olimpiada günlərində paytaxtımızda həm də FİDE konqresinin növbəti iclası olacaq.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1457